научной статье также исследуются преподавание как социально-гуманитарных, так и естественных наук в Гяндже в эпоху Возрождения, услуги выдающихся ученых, мыслителей и педагогов того периода, которые работали в медресе и пользовались многочисленными книгами библиотек. В научной статье на основе имеющихся научных источников, исторических документов, письменных источников рассматриваются заслуги и меценатская деятельность Атабейского государства Азербайджана, сыгравшего исключительную роль в формировании и развитии традиций нашей национальной государственности и выдающихся деятелей науки и культуры.

**NIZAMI GANJAVI 880: HISTORICAL AND ETHNOGRAPHIC RESEARCH OF GANJA CITY DURING THE RENAISSANCE**

***Hasanov Elnur Latif oglu***

***Summary***

Scientific work is dedicated to 2021 in our country - "Year of Nizami Ganjavi" and on the basis of historical, written scientific sources, archival documents, the features of socio-cultural development during the Renaissance, when the great thinker lived and worked, are studied. Along with sheikh Nizami, the level of teaching, learning and research is being studied in the environment where such great contemporaries as Mehseti Ganjavi, Givami Mutarrizi, Abul-ula Ganjavi, Razia khanum Ganjavi, Omar Ganjei, Siti Ganjavi, etc. Academic paper also examines the teaching of both social, humanitarian and natural sciences in Ganja during the Renaissance, the services of prominent scientists, thinkers and teachers of that period, who worked in madrasahs and used numerous books in libraries. In scientific article are considered on the basis of available scientific sources, historical documents, written sources, the merits and patronage activities of the Atabey state of Azerbaijan, which played an exceptional role in the formation and development of the traditions of our national statehood and outstanding figures of science and culture.

***Rəytçi: prof. Nərgiz Quliyeva***
***AMEA Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun 28 yanvar 2021-ci il tarixli 01 saylı protokolu***
***Daxil olduğu tarix 15 fevral 2021-ci il***

**UOT:94.**

**ANTONİO QUTTEREŞ VƏ MÜASİR DÜNYA SİYASƏTİ**

***dosent Hüseyn Bəxtiyarlı***
***Gəncə Dövlət Universiteti***
***huseyn.bextiyarli@bk.ru***

**Xülasə:** *Məqalədə BMT-nin baş katibi Antonio Quttereşin müasir dünya siyasətində fəaliyyəti araşdırılmışdır. Qeyd edilmişdir ki, böyük ictimai-siyasi məzmun kəsb edən fəaliyyətinin ilk illərindən A. Quttereş beynəlxalq müstəvidə baş verən proseslərə təsir göstərməyə çalışmışdır. Onun çıxışlarında BMT-nin prioritet hesab etdiyi məsələlər açıq şəkildə göstərilir. Həmin məsələlər sırasında Ukrayna, Suriya məsələlərinin həlli, İranın nüvə təhlükəsizliyi problemi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi aparıcı yer tutur. Eyni zamanda beynəlxalq terrorizzm, qlobal iqlim dəyişikliyinin qarşısının alınması ciddi məsələlər sırasındadır. BMT rəhbəri hesab edir ki, dünyada sülhü və təhlükəsizliyi təmin etmək əvvəlki dövrlərdən daha çətindir. Çünki, hazırda miqrasiya problemi də prioritet məsələlərə çevrilmiş və əsaslı narahatlıq yaradır. Ona görə də BMT Təhlükəsizlik Şurasının üzvü olan aparıcı dünya dövlətləri öz səylərini daha da artırmalı və bununla beynəlxalq*

*problemlər öz həllini tapa bilər. Təbii ki, BMT baş katibi sülhə çağırış olan hər hansı hərəkəti dəstəkləyir və bu istiqamətdə mövqeyi dəyişməyəcəkdir. Belə bir qənaət yaranır ki, beynəlxalq birlikdə real siyasi gücü olan dövlətlərdən sülhə dəstək verməl*ə*ri tələb olunur.*

**Açar sözlər:** Müasir, BMT, Siyasət, Dünya, Partiya
**Ключевые слово:** Современный, ООН, Политика, Мир, Партия
**Key words:** Modern, UNO, Politics, World, Party

BMT-nin 9-cu baş katibi Antonio Quttereş 1949-cu ildə Portuqaliyanın paytaxtı Lissabon şəhərində doğulmuşdur. İxtisasca mühəndis olan A. Quttereş ictimai fəaliyyətinin erkən dövrlərində-1970-ci illərdə Lissabonun yoxsul məhəllələrində sosial inkişaf layihələrini həyata keçirən assosiasiyaya rəhbərlik etmiş, həmçinin, Portuqaliya Qaçqınlar Şurasını, Portuqal İstehlakçılar Assosiasiyasının (DECO) təsisçisi olmuşdur.

1974-cü ildə Portuqaliya Sosialist Partiyasına üzv qəbul olunmuş, 1976-cı ildə isə Portuqaliya parlamentində 17 il deputat kimi fəaliyyət göstərmişdir. Əvvəlcə parlamentin iqtisadiyyat, maliyyə və planlaşdırma komitəsinə, sonra ərazi-idarəetmə, bələdiyyə və ətraf mühit komitəsinə sədrlik etmişdir.

Həmçinin, Sosialist Partiyasının parlament qrupunun lideri olmuşdur. 1992-2002-ci illərdə isə O, bütövlükdə Sosialist Partiyasına liderlik etmiş, partiyanın baş katibi postunu tutmuşdur.

Antonio Quttereş 1981-1983-cü illərdə Avropa Şurası Parlament Assambleyasında demoqrafiya, miqrasiya və qaçqınlar komitəsinə sədrlik etmişdir. Sosialist İnternasionalının fəallarından olan Quterreş 1992-1999-cu illərdə bu qurumun vitse-prezidenti, Afrika Komitəsinin, İnkişaf Komitəsinin həmsədri olmuş, 1999-2005-ci illərdə isə Sosialist İnternasionalına rəhbərlik etmişdir.

Antonio Qutteres 1991-2002-ci illərdə Portuqaliya Dövlət Şurasının üzvü, 1995-2002-ci illərdə Portuqaliyanın baş naziri olmuşdur. Bundan başqa O, 2000-ci ilin əvvəllərində qısa müddətə Avropa İttifaqı Şurasının prezidenti postunu da tutmuşdur.

Gələcək BMT rəhbəri 2005-2015-ci illərdə BMT-nin qaçqınlar üzrə ali komissarı vəzifəsində çalışmışdır. Nəhayət, 2017-ci il yanvarın 1-dən BMT-nin baş katibidir. Keçmiş dövlət və hökumət başçılarının cəmləşdiyi Madrid Klubunun üzvüdür.

Qeyd edək ki, A. Qutteres bir neçə dil , o cümlədən portuqal, ingilis, fransız və ispan dillərini bilir. Həyat yoldaşı da siyasi arenada tanınan şəxslərdəndir. Belə ki, Lissabon Mədəniyyət Bələdiyyəsi başçısının müavini vəzifəsini icra edir. İki övladı, bir oğulluğu və üç nəvəsi var.

"Beynəlxalq təhlükəsizlik" anlayışı təqribən 100 il əvvəl beynəlxalq münasibətlər lüğətinə daxil edilmişdir. O zamana qədər Silahlı Qüvvələrin istifadəsi "müharibə" və "sülh" anlayışları ilə ifadə edilmişdir. Yaxın günlərədək beynəlxalq təhlükəsizliyə hərbi təhlükəsizliyin fenomeni kimi baxılırdı. O, dövlət və dövlətlər qrupu tərəfindən ehtimal olunan təcavüzü aradan qaldırmaq üçün Silahlı Qüvvələrin kifayət qədər hazır vəziyyətdə saxlanılması, hərbi ittifaqların yaradılması, bəzi hallarda isə şəxsi maraqlarının gerşəkləşməsi naminə hərbi gücdən istifadə edilməsi və ya onun tətbiq edilməsi hədəsi və s. kimi xarakterizə edilirdi. Tədricən hərbi güc amili hərbi qarşıdurmanın miqyasını, qızğın silahlanmanı və silahlı münaqişələrin baş vermə ehtimalını məhdudlaşdırmağa xidmət edən diplomatik və digər siyasi alətlər kompleksi ilə zənginləşdi (6,1).

A. Qutteres beynəlxalq siyasətin müxtəlif məsələləri ilə bağlı Birləşmiş Millətlər Təşkilatı adından çıxış edir. Mərkəzi Afrika respublikalarında ictimai-siyasi sabitlik məsələlərinə dair çıxışı təqdirə layiqdir. Antonio Qutteres çıxışı zamanı ölkədə yaşayan müsəlmanların hüquqlarının qorunmasının vacibliyini vurğulamış, BMT rəhbəri kimi bunun diqqət mərkəzində saxlanılacağına təminat vermişdir.

Həmçinin, müsəlmanlara qarşı zorakılıq hallarının qəbuledilməz olduğunu bildirən Quterreş: "Zorakılığı dayandırmaq üçün birləşməliyik" şüarını irəli sürmüşdür. Antonio

Qutterres "Dünyanın hər bir yerində sülh xarici qüvvələrin müdaxiləsi ilə təmim oluna bilməz" fikrini də bəyan etmişdir (3,1).

BMT-nin başlıca məqsədi Yer kürəsində sülhün qorunması, millətlər arasında dostluq və qardaşlıq əlaqələrinin yaradılması və möhkəmləndirilməsi, insanların həyat səviyyəsinin və rifahının yaxşılaşdırılması, hüquq və vəzifələrinin qorunub təmin edilməsidir (2,431).

BMT baş katibi Antonio Quttereş Birləşmiş Millətlər Təşkilatının 2018-ci ildəki fəaliyyəti ilə bağlı 12 prioritet istiqaməti təsbit edib (5,1).

Məlumata görə, BMT prioritetlərinə Ukrayna, Suriya və digər qaynar nöqtələrdə münaqişələrin həlli, terrora qarşı mübarizə, qlobal iqlim dəyişikliyinin qarşısının alınması və miqrasiya probleminin həlli kimi məsələlər daxildir.

Ukrayna Ruisya artıq Avrasiya imperiyası deyil və Ukraynasız Rusiya hələ ki, imperiya statusu uğrunda mübarizə apara bilər, lakin, bu zaman o əsasən Asiyanın imperiya dövləti olardı və çox güman ki, yenicə başını qaldırmış Orta Asiya ilə üzücü münaqişəyə cəlb edilmiş olardı (1,44).

BMT rəhbəri dünya ictimaiyyətini Avropa münaqişələrinin gərginləşməsi və dondurulmasına səbəb olan "iflici müalicə etməyə" çağırıb. "Hər iki dünya müharibəsinin Avropada başladığını, Avropanın resursları və potensiallarını nəzərə alsaq, regionda münaqişələrin davam etməsinə imkan verməк olmaz" fikrini də baş katib vurğulamışdır.

Qutterешin sözlərinə görə, regionda münaqişələrin həllini tapması üçün "təhlükəli millətçilik dalğasını dəf etmək, həmçinin, vasitəçilik təşəbbüslərinə, o cümlədən, "normand formatı", Şərqi Ukrayna üzrə Üçtərəfli təmas qrupu, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupu, Gürcüstanla bağlı beynəlxalq Cenevrə diskussiyaları və Dnestryanı üzrə "5+2" formatlı prosesə təkan vermək lazımdır.

Bundan savayı, BMT baş katibi Qərbi Balkanlarda mövcud olan münaqişələrin uzun müddətli həlli yollarının tapılması üçün "mərkəzləşmiş səylərə" ehtiyac olduğunu vurğulayıb. "Avropa ümumi rifah və əmin-amanlıq şəraitində, birgə yaşama prinsipləri əsasında mövcud olmağa qadirdir. Avropa liderlərini bunu əyani şəkildə sübut etməyə çağırıram", – deyə Qutteреş bəyan edib (4,1).

Digər prioritetlər arasında baş katib 2018-ci ildə təhlükəsiz, tənzimlənən və idarəolunan miqrasiya üzrə qlobal miqyaslı sazişlərin qəbulunu, bəşəriyyətin rifahı naminə müasir texnologiyalardan istifadəni, BMT ilə Afrika İttifaqı arasında tərəfdaşlığın möhkəmləndirilməsini, sülhməramlı əməliyyatların effektivliyinin artırılmasını, həmçinin, insan haqlarına hörmətin aşılanmasını sadalayıb.

**BMT baş katibi Antonio Qutteреş ABŞ-ın İranın nüvə proqramı üzrə Hərtərəfli Birgə Fəaliyyət Planında iştirak edənlərin siyahısından çıxaraq Tehrana qarşı sanksiyalar rejiminə qayıtmaq qərarına görə məyus olduğunu bəyan edib.**

APA-nın xəbərinə görə, baş katibin yaydığı bəyanatda qeyd edilib ki, İranın nüvə proqramı üzrə Hərtərəfli Fəaliyyət Planı nüvə silahlarının yayılmaması və diplomatiya sahəsində böyük nailiyyətdir. O vurğulayıb ki, saziş regional, eləcə də beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində mühüm töhfədir.

A. Qutteреş əlavə edib ki, sazişlə bağlı ortaya çıxan bütün problemlər müvafiq mexanizmlər vasitəsilə həll edilməlidir və Hərtərəfli Fəaliyyət Planının müddəalarına birbaşa aid olmayan suallar bu sazişin həyata keçirilməsi üçün səyləri sarsıtmamalıdır.

Baş katib İranın nüvə proqramı ilə bağlı razılaşmada iştirak edən bütün tərəfləri öz öhdəliklərini icra etməyə və digər dövlətləri isə bu işdə lazımi dəstək verməyə çağırıb.

Qeyd edək ki, ABŞ prezidenti Donald Tramp ölkəsinin İranla bağlanmış sazişdən çıxdığını bəyan edib. D. Tramp Tehranı uranı zənginləşdirməkdə və sazişin müddəalarına zidd olaraq qadağan olunmuş silahlar hazırlamaqda ittiham edib.

İranın nüvə proqramı üzrə Hərtərəfli Birgə Fəaliyyət Planı 2015-ci ilin iyul ayında İran və "altılıq ölkələri" -Almaniya, Böyük Britaniya, Fransa, Çin, Rusiya və ABŞ tərəfindən

qəbul edilib. İyulun 20-də sənəd BMT Təhlükəsizlik Şurası tərəfindən təsdiq edilib. Razılaşmaya əsasən, İran nüvə silahının əldə edilməsindən imtina edir, qarşılığında isə sanksiyalar tədricən ləğv edilir.

Prezident İlham Əliyev Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının baş qərargahında BMT-nin baş katibi Antonio Quterreş ilə görüş keçirir. Görüş zamanı prezident İlham Əliyev BMT-nin fəxri qonaqlar kitabını imzaladı.

BMT-nin baş katibi Antonio Quterreş Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşməkdən məmnunluğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan bizim köhnə dostumuzdur. Azərbaycan çox böyük və faydalı işlər görür, təşəbbüslər və tədbirlər həyata keçirir.

Antonio Quterreş Azərbaycan ilə BMT arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu dedi, qarşılıqlı anlaşmanın mövcudluğunu vurğuladı. Bildirdi ki, Azərbaycan BMT-nin layihələrində fəal iştirak edir. Qurumun baş katibi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən narahatlığını ifadə etdi, münaqişənin həlli ilə bağlı həmsədrlərin əllərindən gələni edəcəklərinə ümidvar olduğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın BMT çərçivəsində böyük işlər gördüyünü dedi. Dövlətimizin başçısı BMT-nin Sivilizasiyalar Alyansının qlobal forumları, mədəniyyətlərarası dialoq forumları, Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində Bakıda keçirilən tədbirlərdən danışdı və bu cür layihələrin ölkəmizdə davam etdiyini dedi.

Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini, yoxsulluğun aşağı səviyyədə olduğunu, savadlılığın 100 faizə yaxınlaşdığını vurğuladı. Prezident İlham Əliyev Ermənistan tərəfinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara mane olduğunu və münaqişənin həllinin uzadılmasına çalışdığını bildirdi.

Azərbaycan Prezidenti qeyd etdi ki, ölkəmiz bu münaqişənin sülh yolu ilə həll edilməsini istəyir. Ancaq, bu istiqamətdə təşəbbüslər göstərilsə də nəticə yoxdur. Dövlətimizin başçısı dedi ki, biz istəyirik insanlarımız öz dədə-baba yurdlarına qayıdıb orada rahat yaşasınlar.

Prezident İlham Əliyev Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpası barədə də danışdı. Bildirdi ki, bu kənddə bütün lazımi infrastruktur yaradılıb.

Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan qondarma xəritələr icad edir, Dağlıq Qarabağı oraya daxil edir və bir çox ölkələrdən erməniləri Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirir. Azərbaycan Prezidenti vurğuladı ki, BMT bütün bunları nəzərə almalı və həmsədrlərə mesaj göndərməlidir.

Xarici İşlər naziri Elmar Məmmədyarov BMT-nin Baş katibi Antonio Quterreş ilə görüş keçirmişdir. Nazirlikdən Trend-ə verilən məlumata görə, Baş katib Azərbaycanda həyata keçirilən daxili islahatları alqışladığını vurğulayaraq, səmimi salamlarının və xoş arzularının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə çatdırılmasını xahiş etdi.

E. Məmmədyarov bu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçiriləcək Qoşulmama Hərəkatının növbəti Zirvə görüşünə istinad edərək, Baş Katibi bu tədbirdə iştirak etməyə dəvət etdi.

Nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan tənzimləmə prosesinin cari vəziyyəti və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Nyu Yorkda iki ölkənin Xarici İşlər Nazirləri arasında keçirilən ən son görüş barədə Baş Katibə ətraflı məlumat verdi.

Münaqişənin həlli üzrə beynəlxalq ictimaiyyətin mövqeyini, ilk növbədə isə Təhlükəsizlik Şurasının qətnamələrini xatırladan Nazir Azərbaycanın işğal edilmiş torpaqlarının boşaldılması və bu ərazilərdən didərgin salınmış yüz minlərlə azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması tələbinin Ermənistan tərəfindən yerinə yetirilməsinin zəruri olduğunu vurğuladı.

A. Quterreş münaqişənin həlli istiqamətində ATƏT-in Minsk Qrupu tərəfindən aparılan fəaliyyətə dəstək verdiyini qeyd etdi və BMT-nin sülh prosesinin inkişafına hər zaman töhfə verməyə hazır olduğunu bildirdi.

Ancaq, təəssüflə bildirməliyik ki, BMT hələ də problemin həlli istiqamətində təsirli addımlar atmır. Hesab edirik ki, Baş katib dünyanın ən böyük sülh və təhlükəsizlik təşkilatının rəhbəri kimi problemə daha ciddi yanaşsa, o halda Cənubi Qafqazda sülhü nəinki bərpa etmək olar, həm də onu uzun müddətli edilməsi şübhəsiz kimi qəbul edilərdi.

Görüşdə tərəflər, həmçinin, BMT-nin gündəliyində duran və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi apardılar. Görüşün sonunda nazir Elmar Məmmədyarov BMT-nin Fəxri Qonaqlar Kitabını imzaladı.

Beləliklə, A. Qutteresş beynəlxalq siyasətin ən yüksək zirvəsində olan şəxs kimi dünyanın müxtəlif bölgələrində mövcud olan münaqişələrin aradan qaldırılması istiqamətində bundan sonra da təsirli və ciddi addımlar atmalıdır.

Çünki, münaqişələrin hələ də həll edilmədiyi bir şəraitdə dünya nizamının qorunub saxlanılması üçün ayrı-ayrı təşkilatların fəaliyyətinin gücləndirilməsi istiqamətində geniş və dərin düşünülmüş siyasi prinsiplər üzrə tədbirlər həyata keçirməlidir. Mənz, bununla qəti şəkildə demək olar ki, yaxın gələcəkdə dünyada münaqişə ocaqlarında sülh bərqərar olacaqdır.

Təbii ki, Azərbaycan xalqı da əsrlər boyu oz azadlığını təmin etdiyi kimi, bu gün də qarşılaşdığı münaqişənin həll ediləcəyini görəcək və o halda BMT-nin beynəlxalq nüfuzuna inam möhkəmlənəcəkdir.

### *Ədəbiyyat*

1. Abbasbəyli A. Müasir dünyanın siyasi nəzəriyyəsi. B.2008.
2. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. B. 2011.
3. www.google.az. Beynəlxalq sülh və təhlükəsizlik.
4. www.google.az. Sülhə çağırış.
5. www.xeber.az. BMT baş katibi.
6. www. new times. az. Nəcəfov Z Müasir beynəlxalq təhlükəsizliyin meqatrendləri.

## АНТОНИО ГУТТЕРЕШ И ПОЛИТИКА СОВРЕМЕННОГО МИРА

***Бахтиярлы Гусейн***

### *Резюме*

В статье исследуется деятельность Генерального секретаря ООН А. Куттереша. Отмечается, что в последние годы ООН демонстрирует лидирующие позиции в мировой политике. Особая роль отводится деятельности генерального секретаря А. Куттереша. Он представил приоритеты Организации Объединенных Наций более широкому политическому кругу. Решение этих вопросов может оказать серьезное влияние на международный мир.

## ANTONIO GUTTERES AND CONTEMPORARY WORLD POLITICS

***Bakhtiyarlı Huseyn***

### *Summary*

The article investigates the activities of UNO Secretary General A. Kutteresh. It is noted that in recent years, the UNO has been demonstrating its leading position in world politics. A special role is given to the activities of Secretary General A. Kutteresh. He presented the priorities of the United Nations Organization to a wider political circle. The resolution of these issues can have a major impact on international peace.

***Rəyçilər: Dosent E. Paşayeva və b/m,t.ü.f.d. G. Mustafayeva.***
***Ümumi tarix kafedrasının 27 fevral 2021 tarixli iclasın 06 saylı***
***Daxil olma tarixi 03 mart 2021-ci il***